Geosiyasət

# Azərbaycan beynəlxalq hüquq praktikasında yeni reallıq yaratdı

**Azərbaycan təxminən 30 il ərzində ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılmış səmərəsiz danışıqlardan sonra silaha sarılaraq özünün ərazi bütövlüyünü bərpa etdi. Ermənistanın işğalçı və terrorçu ordusu üzərində qazanılmış bu böyük Qələbə zəngin siyasi təcrübəyə malik Prezident, Ali Baş Komandan İlham Əliyevin gərgin diplomatik səyləri və müzəffər Azərbaycan Ordusunun şücaəti sayəsində mümkün oldu. Dövlət başçısı problemin siyasi yollarla nizamlanmasını, Azərbaycan Ordusu isə hərbi məsələləri böyük peşəkarlıq və cəsarətlə həll etdi. Nəticə, təbii ki, sevindirici oldu, işğal altındakı ərazilərimiz bir-birinin ardınca düşmən tapdağından azad edildi və hər dəfə qalib Prezident televiziya vasitəsilə bu müjdəni doğma xalqına çatdırdı.**

> **Bölgəmizdə yeni reallıq yarandı. Bu reallığı biz yaratdıq. Azərbaycan yaratdı bu reallığı. Biz düşməni torpaqlarımızdan qovduq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, kağız üzərində qalırdı. Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq.**
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**



Azərbaycan lideri hər dəfə qürur hissi ilə bəyan edirdi ki, rayonlarımız ordumuzun döyüş meydanında qazandığı tarixi qələbələr nəticəsində azad edilib. Azərbaycan Ermənistan üzərində həm döyüş meydanında, həm də informasiya məkanında – siyasi müstəvidə qələbə qazanıb. Nəticədə Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut rayonları, Xocavənd rayonunun böyük bir hissəsi və Şuşa şəhəri hərbi yolla azad edilib. Şuşadan bir gün sonra 70-dən çox kəndin azad edilməsi ilə düşmən diz çöküb və kapitulyasiya aktına imza atıb.

Prezident İlham Əliyev döyüş meydanında qəhrəmanlıqlar göstərmiş hərbçilərimizi Azərbaycanın ən yüksək mükafatları ilə təltif etdi. Eyni zamanda, Vətən müharibəsində tarixi qələbəmiz münasibətilə dekabrın 10-da Bakıdakı Azadlıq meydanında hərbi parad keçirildi. Paradda Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, ölkəmizə güclü siyasi və mənəvi dəstək vermiş qardaş Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan da iştirak etdi. Bununla bir daha əmin olduq ki, Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil, qardaş Türkiyə həmişə onun yanındadır.

Qələbənin əldə olunmasının ən ümdə şərtlərindən biri də Azərbaycan xalqının müharibə günlərində Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşməsi oldu. Bu, tarixdə görünməmiş xalq-iqtidar-ordu birliyi idi. Bu, Prezidentin milli maraqlar naminə sinəsini qabağa verərək bütün ədalətsiz dünyanın qarşısında dayanması demək idi. Ordumuzun qələbələr qazanaraq irəlilədiyi günlərdə Azərbaycan Prezidentinə nə qədər təzyiqlər göstərilirdi. Amma cənab İlham Əliyev qətiyyətlə bəyan edirdi ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır.

Prezident İlham Əliyev şanlı qələbədən sonra, demək olar ki, bütün azad olunmuş ərazilərə səfər etdi. Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfəri zamanı bəyan etdi ki, biz bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini göstərdik, xalqımızın əyilməz ruhunu göstərdik. Dövlət başçısı bu gün Ermənistanda baş qaldırmaq istəyən revanşist qüvvələrə də mesajını çatdırdı: biz heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha baş qaldırsın. Biz Ermənistan ordusunu, demək olar ki, məhv etmişik: "Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıbdır. Bu, xalqımızın, ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad etmişik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın".

Dövlət başçısı hələ 2020-ci il dekabrın 1-də Laçının işğaldan edilməsi ilə bağlı xalqa müraciətində qeyd edirdi ki, rayon bir güllə belə atılmadan qaytarılıb. Azərbaycan düşməni buna məcbur edib. Döyüş meydanında əldə edilmiş parlaq qələbə belə gözəl nəticəyə gətirib çıxarıb ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın döyüşsüz Azərbaycana təhvil verilib.

Prezident uzun illər ərzində aparılmış danışıqların nəticələrinə toxunaraq demişdi ki, beynəlxalq vasitəçilər Azərbaycanı mövcud reallıqla, yəni ərazilərin müəyyən hissəsinin itirilməsi ilə barışmağa məcbur etmək istəyiblər. Ancaq təbii ki, Laçın, Kəlbəcər və Şuşa Azərbaycana qaytarılmadan Ermənistanla hansı razılaşmaya getmək olardı? Azərbaycan liderinin mövqeyi də həmişə belə olub ki, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunun üçün müharibə variantı da heç vaxt istisna olunmayıb. Danışıqların aparıldığı bu illər ərzində Azərbaycan bütün resurslarını səfərbər edərək güc toplayıb. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində, həm iqtisadi məsələlərin həllində, ölkəmizdə həmrəyliyin və milli birliyin möhkəmlənməsində, ordu quruculuğunda güc toplanıb. Son nəticədə, Prezidentin dediyi kimi, bu güc "Dəmir yumruq" formasına gətirilərək, düşmənin başına endirilib, onun belini qırıb və bu gün bölgədə yeni reallıq yaradıb. Bununla bağlı dövlət başçısı deyib: "Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Belə cəhdlər var. Bu cəhdlərin bir məqsədi var ki, bu razılaşma pozulsun. Çünki bu razılaşma bəzilərini çox qıcıqlandırır ki, artıq burada yeni təhlükəsizlik formatı yaranıbdır. Türkiyə-Rusiya Birgə Mərkəzinin yaradılması bəyanatda təsbit edilib. Eyni zamanda, burada təhlükəsizlik tədbirlərinin görülməsi və bəyanatın müddəalarının icra edilməsi bəzilərini qıcıqlandırır. Ancaq bizim işimizə, əldə edilmiş razılaşmaya heç kim müdaxilə edə bilməz. Razılaşma icra edilir və icra ediləcəkdir".

Beləliklə, 44 günlük müharibəni şanlı qələbə ilə başa vuran Azərbaycan bölgədə yeni reallıq yaratdı, düşmənin başını əzərək, onu torpaqlarımızdan qovaraq yeni reallıqla barışmağa məcbur etdi. Buna görə də Azərbaycan lideri İlham Əliyev cəsarətlə bəyan etdi ki, bundan sonra hər kəs bu reallıqla barışacaq, məcbur olub barışacaq, necə ki, Ermənistan barışdı. Bu bəyanatın altında Paşinyanın imzası var. Bunu o imzalayıb, məcbur olub. O, əslində, kapitulyasiya aktına öz imzasını qoyub. Əks halda Ermənistan tamamilə məhv olacaqdı.

Bölgəmizdə Azərbaycanın öz gücü ilə yaratdığı yeni reallıq nəticəsində düşmən torpaqlarımızdan qovuldu. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmiş olduq. Bu qətnamələr 27 il ərzində guya "icra mexanizmi olmadığına görə" kağız üzərində qalırdı. Bu qətnamələr təkcə Ermənistan üçün deyil, bir çox başqaları üçün də 27 il idi ki, sadəcə olaraq, kağız parçası idi. Azərbaycan bütün beynəlxalq kürsülərdən bəyan edirdi ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri işğalçı qüvvələrin torpaqlarımızdan çıxmasını tələb edir. Amma bunun nəticəsi olmurdu. Nəhayət, Azərbaycan əsgərinin silahı beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdı. Bununla da Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdi.

Ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Biz işğala son qoyduq. Prezident İlham Əliyev demişdi: "Ümid edirəm ki, biz bölgədə bu gün və gələcək üçün yeni təhlükəsizlik, yeni əməkdaşlıq formatını təşkil etdik. Bu format nədən ibarət olacaq, bunu həyat göstərər. Hər halda biz bu yeni əməkdaşlıq formatının yaradılması üçün lazımi işləri gördük, öz torpaqlarımızdan düşməni qovduq və noyabrın 10-da imzalanmış bəyanatda göstərilən məsələlər əgər bu gün öz həllini taparsa, onda bölgəmizdə yeni əməkdaşlıq çərçivələri yaradılacaqdır".

Beləliklə, Azərbaycan 44 günlük müharibə zamanı təqribən 5 min kvadratkilometrə yaxın ərazini döyüş yolu ilə azad edib. Təxminən bir o qədər – 5 min kvadratkilometrə yaxın ərazi də sonradan sülh yolu ilə qaytarılıb. Bu barədə danışan Ali Baş Komandan deyib ki, əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Çünki biz düşməni buna məcbur etdik. Düşmən artıq uçurum kənarında dayananda, tamamilə məhv olmaq dərəcəsinə çatanda anladı ki, qalan rayonları qaytarmaq lazımdır. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı: "Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var. Uzun illər nə qədər düşünülmüş siyasət aparmışıq. Bir çox hallarda bu siyasətin əlamətlərini ictimaiyyətə təqdim edə bilmirdik. Çünki sadəcə olaraq, bu, konfidensial məlumat idi və bizim planlarımızın reallaşmasına müdaxilə edə bilərdi. Amma çox dəqiq, məqsədyönlü, ardıcıl siyasət apararaq bir nöqtəyə vururduq, bir məqsədimiz var idi – torpaqlarımızı düşməndən təmizləmək. Buna nail olduq".

Sonrakı çıxışlarında müzəffər ordumuzun Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək uğurlu əməliyyat aparması haqqında danışan Azərbaycan lideri bildirib ki, ölkədə ordu quruculuğu həmişə bir nömrəli məsələ olub. Məhz güclü və rəşadətli ordu yaradılması nəticəsində torpaqlarımız azad olunub, tarixi ədalət bərpa edilib. Məhz buna görədir ki, Azərbaycan Ordusunun adı bu gün dünyanın ən güclü orduları sırasında çəkilir.

Ordumuz Vətən müharibəsində düşmən üzərində tarixi Qələbə qazandıqdan və Ermənistanın 30 ildən bəri davam etmiş işğalına son qoyulduqdan sonra Prezident İlham Əliyev bu ərazilərin bərpa olunacağını, bütün şəhər və kəndlərimizin dirçəldiləcəyini bəyan etmişdi. Azərbaycan Prezidenti son aylarda işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Şuşaya səfərləri zamanı yeni açılış mərasimlərində iştirak etməsi, eyni zamanda, yeni təməlqoyma tədbirlərinə qatılması göstərir ki, bu istiqamətdə işlər uğura davam edir. Təsadüfi deyil ki, artıq Füzuli Beynəlxalq Hava Limanı ilk təyyarəsini qəbul edib. Şübhəsiz ki, dövlət başçısının bu istiqamətdə birbaşa qayğısı nəticəsində indiyədək məcburi köçkün həyatı yaşamağa məhkum edilmiş vətəndaşlarımız da öz yurd-yuvalarına qayıdacaqlar.

*Paşa ƏMİRCANOV,*
*"Xalq qəzeti"*